

**Xızı Rayon Mədəniyyət və Turizm Şöbəsi uzun illərdir ki, fəaliyyət göstərir. Bu dövr ərzində kollektivə çox adamlar rəhbərlik etmişdir. Amma nə danmalı, şöbənin inkişafı və fəaliyyətindəki dönüş hazırki müdir Sənan Talıbovun adı ilə bağlıdır.**

# Etimad və məsuliyyət

***Xızıya ilk səfərimiz də məhz Sənan müəllimin təyinatı dövrünə təsadüf edir. Bu illər ərzində respublikamızın bu dilbər guşəsinə dəfələrlə baş çəkmişik. Fərəhli haldır ki, hər gəlişimizdə bir yeniliyin, abadlıq və yenidənqurma işlərinin şahidi olmuşuq.***

İndi Xızı tikinti meydanını xatırladır. Bu inşaat işlərindən təbii ki, mədəniyyət müəssisələrinə də pay düşür. Sənan müəllimlə söhbətimiz 2010-cu ildə görülmüş işlər, həyata keçirilmiş mədəni tədbirlər, gerçəkləşdirilmiş layihələrlə bağlıdır.

- Şöbəmizin nəzdində 27 mədəni-maarif müəssisəsi vardır. Onlardan 25-i uzun illərdir ki, fəaliyyət göstərir . 2 müəssisə- rayon mədəniyyət sarayı və tarix-diyarşünaslıq muzeyi yeni tikilib istifadəyə verilmişdir. Rəsmi qeydiyyata alınmış, hələlik ştat ayrılmadığından ictimai əsaslarla fəaliyyət göstərir. Bütövlükdə bu müəssisələrdə 129 nəfər çalışır . Onlardan 16 nəfəri ali, 31 nəfəri orta ixtisas, 73 nəfəri isə orta təhsillidir.

Bu kadrların birgə köməyi ilə şair və yazıçılarımızın, elm və incəsənət xadimlərimizin yubileyləri, tarixi-əlamətdar günlərlə, habelə mədəniyyətimizin təbliği və inkişafı, istedadlıların aşkara çıxarılması və s. məsələlərlə bağlı tədbirlər təşkil olunur. Buna bir nümunə kimi keçirilən bəzi tədbirləri qeyd etmək istəyirəm. Nakam şairimizin adını daşıyan Müşfiq muzeyində xatirə gecəsi, Gənclər günü münasibətilə C.Cabbarlı adına rayon mədəniyyət evində gənclərlə görüş, geniş konsert proqramı, MKS və filial kitabxanalarda oxucuların disputu, Beynəlxalq Qadınlar günü münasibətilə mədəniyyət evinin özfəaliyyət kollektivinin, "Xızı dağları" ansamblının və Bakı şəhərindən dəvət edilmiş tanınmış sənətkarların (bəstəkar-muğənni Elza Seyidcahan və b.) konserti və s. təşkil edilmişdir. Rayon mədəniyyət evində teatr günü münasibətilə rəngarəng tədbir keçirilmişdir. Ayrı-ayrı mədəniyyət müəssisələrində təşkil edilən tədbirlər də (C.Cabbarlının xatirə gecəsi, faşizm üzərində qələbənin 65-ci ildönümü, Beynəlxalq Ailə günü, Uşaqların Beynəlxalq Müdafiəsi günü və s.) təşkilati baxımdan yüksək səviyyədə hazırlanmışdır.

Bölgədə keçirilən mədəni tədbirlər AzTV, ATV, İctimai telekanallarda nümayiş etdirilmiş, müxtəlif qəzet və jurnal səhifələrində işıqlandırılmışdır.

**Hesabat dövrü ərzində mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, onların müvafiq avadanlıq və informasiya texnologiyası ilə təminatına dair müxtəlif layihələr gerçəkləşdirilmişdir.**

● **E.HƏSƏNQIZI**